# Zəngəzur dəhlizi nəzərdə tutulduğundan da böyük olacaq - inanılmaz...

**Ermənistan baş naziri Nikol Paşinyan son mətbuat konfransında bildirib ki, İrəvan ilə Bakı arasında sülh sazişinin paraflanması ideyası iki ölkə arasında aparılan davamlı müzakirələrin bir hissəsidir: "Bəli, bu ideya da masadadır. Ermənistan və Azərbaycan arasında sülh və dövlətlərarası münasibətlərin qurulmasına dair saziş layihəsinin mətni razılaşdırılıb və bu mətn üzrə danışıqlar başa çatıb.**

İlkin imzalanma (paraflama) müzakirə olunan variantlardan biridir, lakin bu, bəzi şərtlər daxilində real ola bilər, bəzi şərtlər daxilində daha az real ola bilər".

Son günlər Ermənistandan keçərək Naxçıvanı Azərbaycanın əsas hissəsi ilə birləşdirəcək yolun xarici şirkətə həvalə ediləcəyi ilə bağlı fikirlərə də Paşinyan aydınlıq gətirib. Onun sözlərinə görə, məsələ yolun mülkiyyətə verilməsi ilə bağlı deyil, onun idarə olunması və istismarı üçün investisiya cəlb edilməsi mexanizmlərinin yaradılmasındadır. Baş nazir qeyd edib ki, bu model artıq Ermənistanda mövcuddur, məsələn, "Zvartnots" hava limanı, su təchizatı sistemi dövlətə məxsus olaraq qalır, lakin onların idarəsi müxtəlif şirkətlərə həvalə olunub. Paşinyan bildirib ki, qanunvericiliyə görə, bu tip müqavilələr tikinti hüququ əsasında həyata keçirilə bilər. Müqavilə müddəti başa çatdıqdan sonra həmin obyektlər və ya sərmayələr Ermənistan Respublikasının mülkiyyətində qalır və ya ona keçir. Paşinyan qeyd edib ki, yolun idarəsi ilə bağlı müxtəlif ideyalar müzakirə olunur, lakin, hələlik, heç bir yekun razılaşma yoxdur. Paşinyan Zəngəzur yolu ilə bağlı ABŞ-dən təkliflər alınması ilə bağlı sualı da cavablandırıb: "Bəli, ABŞ-dən təkliflər almışıq". Əlavə edib ki, Ermənistan təkcə ABŞ-dən deyil, digər dost ölkələrdən də müxtəlif təkliflər alıb və almaqda davam edir. Paşinyanın sözlərinə görə, bu təkliflər cəmiyyətə birbaşa və ya dolayı yolla müxtəlif kanallarla çatdırılır: "Çox vacib bir məqam var - müzakirə olunan bütün məsələlər Ermənistan Respublikasının ərazi bütövlüyü, suverenliyi və yurisdiksiyası əsasında aparılır". Xatırladaq ki, ABŞ-ın Türkiyədəki səfiri Tomas Barak iyulun 13-də Nyu-Yorkda jurnalistlərə bildirib ki, ABŞ Naxçıvanla Azərbaycanın qalan hissəsini birləşdirəcək yolu 100 il müddətinə icarəyə götürmək təklifini edib. Ermənistanın baş naziri təsdiqləyib ki, regional blokadanın aradan qaldırılması üçün müzakirə olunan əsas variant Amerikanın təklifidir.O bildirb ki, onlar infrastruktur yaratmaq üçün investisiyaları cəlb edəcəklər. Paşinyan deyib ki, söhbət avtomobil və dəmir yollarından əlavə, elektrik xətlərinin, kabellərin və digər infrastrukturların yaradılmasından da gedir: "Burada söhbət həmin infrastrukturları idarə etməkdən, onun daxilində müəyyən funksiyaların həyata keçirilməsindən gedir. Həmçinin çoxlu müzakirələr gedir, xüsusən icarə, o cümlədən torpağın icarəyə verilməsi mövzusunda. Demək istəyirəm ki, bizim qanunvericilikdə buna tikinti hüququ deyilir və bu hüququn məntiqinə görə, həmin tikinti hüququ əsasında qoyulan investisiyalar da Ermənistan Respublikasının baş nazirinin təqdim etdiyi müqavilənin müddəti bitdikdən sonra ölkənin mülkiyyətinə çevrilir". Paşinyan onu da qeyd edib ki, texnologiyalar insanlar arasında təmasa ehtiyac qoymayacaq. Əşyalar arasında təmas var, biometrik pasportu olan şəxslə əlaqə saxlanılır... qırmızı işıq yandıqda müəyyən funksiyalar var, bunu da aydınlaşdırmaq lazımdır". Xatırladaq ki, Azərbaycan həmişə Naxçıvana maneəsiz, yoxlanılmamış yolun açılmasını tələb edib və İrəvan bu, Ermənistan üçün dörd prinsipin - suverenlik, yurisdiksiya, ərazi bütövlüyü və qarşılıqlılıq qorunub saxlanması ilə baş verərsə, dəhlizin açılmasına tərəfdar olduğunu bəyan edib.

Nikol Paşinyan qeyd edib ki, Azərbaycan tərəfində dəhlizlə bağlı üstünlüklər var: "Məsələ ondadır ki, əslində bu dəmir yolu Azərbaycan ərazisində var, amma bizim ərazimizdə yoxdur. Dediyiniz ABŞ şirkətinin ən mühüm funksiyalarından biri investisiya funksiyası, investisiyaların toplanması və gətirilməsi, investisiyaların həyata keçirilməsi funksiyasıdır. Həmin ABŞ şirkətinin investisiyalardan əlavə başqa funksiyaları da olacaq. Bir çox funksiyaları var. O, təhlükəsizlik funksiyasını yerinə yetirə bilərmi? Bəli, çünki, məsələn, həm "Cənubi Qafqaz Dəmir Yolu"nun, həm də hava limanının xidmətləri var, onların öz daxili təhlükəsizlik xidməti var, hava limanında təhlükəsizliyi əsasən Ermənistanın dövlət qurumları təmin edir, amma dünyada bütün hava limanlarının təhlükəsizliyini başqa mühafizə xidməti də təmin edir". Siyasi şərhçi Hakob Badalyan hesab edir ki, Ermənistan ərazisindən keçən yolun "autsorsinqi"ni hava limanının və ya dəmir yolunun etibarlı idarəçiliyi ilə müqayisə etmək tamaşaçı məlumatsızlığı ilə işləmək deməkdi: "Bir çox dövlətlər milli infrastrukturu özəl idarəçiliyə verir və ya hətta özgəninkiləşdirir, lakin onun ərazisindən keçən hər hansı kommunikasiya funksiyasını etibarlı idarəçiliyə verən dövlət yoxdur, əgər mübahisəli zona deyilsə. Beləliklə, bu müzakirəni istisna etməmək artıq təhlükəli bir hadisədir". Parlament müxalifəti də Nikol Paşinyanın bu müqayisəsini təhlükəli hesab edir və qeyd edir ki, Paşinyan İrəvanda yol idarəçiliyinin autsorsinqini İstanbulda Ərdoğan və Əbu-Dabidə Əliyevlə heç vaxt açıqlanmayan danışıqlardan sonra hava limanının etimad idarəçiliyi ilə müqayisə etməyə başlayıb.

"Hayastan" fraksiyasının üzvü Qeqam Manukyan bu müqayisəni ikiüzlülük hesab edir: "Reallıqda Ermənistan şifahi vədlərin və razılaşmaların növbəti mərhələsinə qədəm qoyur, hökumət bunu gizli şəkildə həyata keçirir və sonda erməni xalqını faktla üz-üzə qoyur". "Şərəfim var" fraksiyasının rəhbəri, Respublika Partiyasının üzvü Hayk Mamicanyan hesab edir ki, Nikol Paşinyan bəyan etdiyi qırmızı xətlərdən geri çəkilə bilər: "Aydındır ki, Paşinyan suala birbaşa cavab vermir, onu hələ verilməmiş qərar kimi formalaşdırmağa çalışır, daha çox danışıqların nədən getdiyinə cavab verir. Əvvəlki danışıqlar təcrübəsi biabırçılıqdır, bunlar qeyri-dövlətçi qərarlardır, ona görə də dərin şübhələr ola bilər ki, onun üçün qırmızı xətt deyilən, yəni bizim müstəqilliyimiz, onun üçün olmaya bilər".Məsələ ilə bağlı "armenianreport" portalı yazır: "Ermənistan regional infrastrukturun blokunun açılması məsələsi ilə bağlı rəsmi ritorikasında təhlükəli ikiliklə üzləşib. "Zəngəzur dəhlizi" adlanan həssas mövzu fonunda artıq hökumət rəsmilərinin açıqlamalarında açıq-aşkar uyğunsuzluq müşahidə olunur. Bu, təkcə siyasi səhlənkarlıq deyil, həm də Ermənistan cəmiyyətinin ölkənin suverenliyinə xələl gətirəcək mümkün güzəştlərə reaksiyasını "sınamaq" cəhdlərini göstərən həyəcanverici siqnaldır. Məlum olduğu kimi, bir müddət əvvəl Ermənistanın baş nazirinin mətbuat katibi Nazeli Bağdasaryan "Armenpress" agentliyinin suallarını cavablandıraraq vurğulamışdı ki, "Ermənistan regional infrastrukturun blokadadan çıxarılması məsələsini müstəsna olaraq suverenlik, ərazi bütövlüyü və Ermənistan Respublikasının ərazisinə daxil ola bilməsi kontekstində müzakirə edir". O, həmçinin "ABŞ-ın Türkiyədəki səfirinin danışdığı ərazilərin icarəyə verilməsinin mümkün olmadığını" bildirib və belə bir dili qəbuledilməz adlandırıb. Bu, aydın və qəti mövqe kimi görünür. Amma Nikol Paşinyan onun mətbuat katibinin bəyanatları çərçivəsinə sığmayan tamamilə fərqli yanaşmalara çağırır.

O, birbaşa olaraq nəqliyyat infrastrukturu, o cümlədən icarəyə götürülmüş torpaq sahələrində yolların, elektrik xətlərinin və boru kəmərlərinin çəkilməsi sahəsində investisiya layihələrini həyata keçirəcək xarici şirkətin yaradılmasının mümkünlüyündən danışır. Üstəlik, söhbət inkişaf hüququ ilə uzunmüddətli icarədən gedir. Bəli, formal olaraq obyektlər dövlətin mülkiyyətində qalmalıdır, lakin infrastruktur idarəçiliyi ilə bütöv torpaq sahələrinin xarici şirkətin əlinə verilməsi artıq sadəcə "investisiya" deyil. Bu, gələcəkdə Azərbaycandan Naxçıvana və əksinə yüklərin daşınacağı kritik avtomobil yollarına müvəqqəti də olsa, faktiki olaraq nəzarətin ötürülməsidir. Üstəlik, baş nazir açıq şəkildə etiraf edir: Ermənistan "Ermənistandan Ermənistana Azərbaycan ərazisi ilə" və "Azərbaycandan Azərbaycana Ermənistan ərazisi ilə" marşrutların açılmasını dəstəkləyir. "Zəngəzur dəhlizi" adlanan layihənin başqa adla da olsa, mahiyyəti məhz bundan ibarətdir. Bəs biz hansı "suverenlik"dən danışırıq? Ağlabatan sual yaranır: doğrunu kim deyir - Nazeli Bağdasaryan, yoxsa Nikol Paşinyan? Yoxsa biz siyasi manevrlərin klassik nümunəsinə baxırıq: bir istiqamətdə - ictimaiyyət üçün sakitləşdirici mesajlar, digər istiqamətdə - strateji güzəştlərlə dolu razılaşmaların həyata keçirilməsi istiqamətində addımlar".




***Nahid SALAYEV***